*https://doi.org/10.59849/2663-4368.2024.1.215*

# Müasir ingilis dilində söz yaradıcılığının əsas üsullarına ümumi baxış

**Firuzə Kərimova**
Filologiya üzrə fəlsəfə doktoru
Dövlət Gömrük Komitəsinin Akademiyası
E-mail: k.firuza@mail.ru

**Annotasiya.** Söz yaradıcılığı dilçiliyin bir bölməsi olub dildə yeni sözlərin yaranmasına xidmət göstərir. Söz yaradıcılığı dilin lüğət tərkibini zənginləşdirir. Müasir ingilis dilində yeni söz yaratmağın müxtəlif yolları mövcuddur. Bu üsullar, əsasən, sözlərə affikslərin artırılması ilə yeni sözlərin yaradılması, iki və daha artıq sözün birləşməsi və yaxud sözün bir nitq hissəsindən digərinə keçidi ilə reallaşır. Beləliklə, bir qayda olaraq, bu cür dəyişikliklər dildə yeni sözlərin yaradılmasını və xüsusi sözyaratma modellərinin olmasını nəzərdə tutur.
İngilis dilinin flektiv dil olmasına baxmayaraq, şəkilçi morfemlərin ingilis dilinin söz yaradıcılığında mühüm rolu vardır. Affiksasiya müasir ingilis dilində söz yaradıcılığının ən məhsuldar üsullarından biridir. Affiksasiya sözün kökünə və ya əsasına prefiks və şəkilçilərin əlavə edilməsidir. Yeni leksik vahidlərin yaranması sözlərin müəyyən semantik dəyişmələrə məruz qalması ilə reallaşır.
**Açar sözlər:** ingilis, söz yaradıcılığı, müasir, üsul, affiks

**Məqalə tarixçəsi:** göndərilib – 23.05.2024; qəbul edilib – 07.06.2024

# An overvıew of the maın methods of word-formatıon ın modern englısh

**Firuza Karimova**
Doctor of Philosophy in Philology
Academy of the State Customs Committee
E-mail: k.firuza@mail.ru

**Abstract.** Word creation is a branch of linguistics and serves to create new words in the language. Word creation enriches the vocabulary of the language. In modern English, there are many different ways to create a new word. These methods are mainly realized by adding affixes to words, creating new words, combining two or more words, or moving a word from one part of speech to another. Thus, as a rule, such changes imply the creation of new words in the language and the existence of special word formation patterns.
Although English is an inflectional language, suffixal morphemes play an important role in English word formation. Affixation is one of the most productive methods of word formation in modern English. Affixation is the addition of prefixes and suffixes to the root or base of a word. The creation of new lexical units occurs when words undergo certain semantic changes.
**Keywords:** English, word creation, modern, method, affix

**Article history:** received – 23.05.2024; accepted − 07.06.2024

## Giriş / *Introduction*

Söz yaradıcılığı bütün dillərin leksikasında önəmli yer tutur. Dildə yeni sözlərin yaranması üçün müxtəlif sözyaratma modelləri mövcuddur.

Sözyaratma modeli hər hansı bir dildə müəyyən morfemlərdən bir sözün əmələ gəlməsinin və əlaqəsinin prinsipləri ilə formalaşması üçün az-çox müntəzəm təkrarlanan sxemidir [1, s.26]. Müasir dilçilikdə "söz yaradıcılığı" termini başqa anlayışları da ifadə edir, yəni müəyyən sistem təşkil edən sadə, düzəltmə sözlərin quruluşunu, inkişafının bu və ya digər mərhələsində dilin digər sözlər ilə əlaqəsini ifadə edir. İngilis dilində söz yaradıcılığı dilçilik elminin ayrıca bir bölməsi kimi tədqiq edilmişdir.

Söz yaradıcılığı termini iki əsas mənanı özündə əks etdirir və bu mənaları bir-birindən ayırmaq lazımdır. Söz yaradıcılığı termini ilkin mənada dildə yeni sözlərin daima yaranma prosesini ifadə etmək məqsədi ilə işlədilir. Dil daima tərəqqi və inkişaf vəziyyətindədir və buraya dildə reallaşan bir çox proseslər, o cümlədən dildə yeni leksik vahidlərin yaradılması prosesi daxildir. Bu proses dildə "söz yaradıcılığı" termini adını almışdır [2, s.14]. Bununla yanaşı, sözügedən modellərin və söz yaradıcılığı üsullarının məhsuldarlığı ilə bağlı sual yaranır. Məhsuldarlıq, bildiyiniz kimi, müxtəlif dil vahidlərinin əsas xüsusiyyətlərindən biridir. Xüsusilə yeni sözlərin yaradılmasında əsas mexanizm olan söz yaradıcılığı modelini xarakterizə edərkən məhsuldarlıq xüsusi əhəmiyyət kəsb edir. Məhsuldar üsulların (morfoloji üsul və s.) və vasitələrin (prefikslər, şəkilçilər və s.) köməyi ilə yeni leksik vahidlərin yaranması mümkün olur, sözyaratma modelinin qeyri-məhsuldarlığı isə sözün hər hansı inkişafını və onun formalarının dəyişməsini dayandırır.

## Əsas hissə / *Main Part*

Söz yaradıcılığı hadisəsi, adətən, iki mövqedən nəzərdən keçirilir: sinxroniya və diaxroniya. Birinci yanaşmada söz yaradıcılığı dilin sinxron kəsişməsində tədqiq edilir, burada əsas diqqət sözlər arasındakı əlaqə və münasibətlərə verilir. Söz yaradıcılığının diaxronik təhlili bizə sözlərin formalaşması zamanı bu hadisəni müşayiət edən tarixi proseslərə nəzər salmağa imkan verir [8, s.167].

Affiksasiya, morfoloji üsulla yeni sözlərin yaranması müasir ingilis dilində söz yaradıcılığının ən məhsuldar üsullarından biridir və sözün tərkibində dəyişikliyə səbəb olur. Affiksasiya sözün kökünə və ya əsasına prefiks və şəkilçilərin əlavə edilməsidir. Yeni leksik vahidlərin yaranması sözlərin ilkin mənasından müəyyən semantik çevrilmələrlə reallaşır [7, s.139].

Müasir ingilis dilində söz yaradıcılığının morfoloji üsulunun əsas problemi şəkilçi morfemlərin mənşəyi problemidir. İngilis dilində bu problemin ortaya çıxması dildəki alınma sözlərin çox olması ilə bağlıdır ki, bu da morfemin törəmə statusu arasında aydın fərq qoymağı çətinləşdirir. İngilis dilində şəkilçi morfemlərin statistikası ilə bağlı müxtəlif fikirlər mövcuddur. O.Espersen müasir ingilis dilində 130, Q.Marşand – 82, P.M.Karaşuk – 64, R.G.Zyatkovskaya – 91 şəkilçi morfemi müəyyən ediblər.

Müasir ingilis dilində prefikslərin sayı ilə bağlı da fikir müxtəlifliyi mövcuddur. K.V.Piottux müasir ingilis dilində 42, M.M.Polyujin isə 48 prefiks müəyyən edir. Morfemin sözün bir hissəsi kimi statusunu müəyyən etmək xüsusi diaxronik təhlil aparmaqla mümkündür, lakin gördüyümüz kimi, bu üsul da bir çox ziddiyyətlərə malikdir.

İngilis dilində indiyə qədər həllini tapmayan məsələlərdən biri də sözdə yarımaffikslərin olması mövzusudur. Leksik vahidin kökü müstəqil şəkildə işlənib leksik-semantik məna daşıyırsa, kök hesab edilə bilər [4, s.75-82]. Əgər belə bir xüsusiyyət müşahidə edilmirsə, o, affiksal sayılır. Həm kök, həm də affiksal morfemlər müstəqillik dərəcəsinə görə fərqlənir və bu əsasda sərbəst və qeyri-sərbəst morfemlərə bölünür. Sərbəst morfemlərə, əsasən, müstəqil sözlə forma və məna hissəsinə görə uyğun gələn kök morfemlər daxildir (məsələn, *blackbird* sözündə *black* və *bird* morfemləri).

Qeyri-sərbəst morfemlər, müvafiq olaraq, sərbəst sözlə üst-üstə düşmür və yalnız başqa morfemlə birləşmədə mövcuddur. Beləliklə, *teacher* sözündə *teach* kök morfemi sərbəstdir, çünki o, nitqdə müstəqil fəaliyyət göstərən müvafiq feillə üst-üstə düşür.

Affikslərin semantikası da elm adamlarının böyük marağına səbəb olur. Bu mövzuda müxtəlif fikirlər mövcuddur. Bu fikirləri üç cür təsnif etmək mümkündür:

1) affiks müstəqil məna daşımır, ancaq sözün yeni semantikasını formalaşdırmağa kömək edir [1, s.10]; 2) affiks yalnız bələdçi rolunu oynayır, sözü bir leksik-qrammatik sinifdən digər sinfə keçirir; 3) affiksin sözdə işlənməsi leksik vahiddə geniş leksik və qrammatik mənalar ifadə edə bilir.

Bu gün affiksin sözyaratma funksiyasının mövcudluğu şəkilçi morfemin əsas funksiyasıdır [4, s.37].

İngilis dilinin söz yaradıcılığında istifadə olunan sözdüzəldici şəkilçilərin Azərbaycan dilindəki qarşılıqları çox nadir hallarda şəkilçi ilə ifadə olunur. Ümumi nəzər yetirsək, müşahidə edərik ki, ingilis dilindəki nitq hissələrindən asılı olmayaraq, düzəltmə sözlərin müəyyən hissəsi Azərbaycan dilinə sadə sözlər kimi, müəyyən hissəsi mürəkkəb sözlər, bir qismi isə düzəltmə sözlər kimi tərcümə edilir. Məsələn, *different* düzəltmə sifəti Azərbaycan dilinə sadə *müxtəlif* sifəti ilə, *characterize* düzəltmə feili *xarakterizə etmək* mürəkkəb feili ilə, *childhood* düzəltmə ismi isə *uşaqlıq* düzəltmə ismi ilə hədəf dildə öz ekvivalentini tapmış olur. Bu fərqliliyi biz hətta eyni şəkilçi ilə düzələn bir neçə fərqli sözün tərcüməsində də müşahidə etdik. Məsələn, *-ive* sifət düzəldən şəkilçi ilə düzələn üç nümunə *active- fəal, productive – məhsuldar, combustive – yandırıcı* hədəf dilə ya sadə söz kimi, ya da iki müxtəlif şəkilçi ilə tərcümə edilmişdir. Bu səbəbdən bəzi şəkilçilərin Azərbaycan dilindəki qarşılıqlarını verərkən müəyyən çətinliklərlə üzləşməli oluruq. Təbii ki, bu problem müxtəlif dil ailələrinə, qrupuna məxsus olan, eyni zamanda müxtəlif fonetik, leksik, sintaktik quruluşa malik olan istənilən iki fərqli dilin müqayisəsi zamanı mümkün olan danılmaz bir faktdır [3, s.35].

Beləliklə, affikslərin semantik xüsusiyyətlərinin təsbiti ilə onların müxtəlif təsnifatlar şəklində ifadə olunan sonrakı sistemləşdirilməsinə keçə bilərik. Aşağıdakı affikslər fərqləndirilir:

1) sözdə yerləşdiyi yerə görə (prefikslər, şəkilçilər);

2) mənşəyə görə – ilkin (prefikslər: *be-, un-, mis-;* şəkilçilər: *-er, -ful, -hood, -ness* və s.) və alınma (prefikslər: *de-, ex-, anti-;* şəkilçilər: *-able, -acy, -ize* və s.);

3) nitq hissəsinə görə – substantiv (prefikslər: *pre-, sub-, dis-*; şəkilçilər *-f ful, -less, -ish* və s.), feili (prefikslər: *dis-, re-, mis-* və s.); şəkilçiləri: *-ion, -er, -ment* və s.), sifət (prefikslər: *un-, anti-, re-* və s.; şəkilçilər: *-ish, -ness, -hood* və s.) [6, s.64];

4) məhsuldarlığa və aktivliyinə görə (*anti- + n → N* (antifashism, antiunion), *co - + n → N* (coauthor, cooperator), *extra- + a → A* (extraterritorial, extraordinary), *v + -er → N* (reader, sleeper, receiver), *v + -able → A* (eatable, readable, speakable) və s.;

5) semantik yükünə görə (oxşarlıq mənalı (*-al, -ed, crypto-, neo-),* inkar mənası ilə (*dis-, in-, -less*), şəxs mənası ilə (*-an, -ian, -ee*), say mənası ilə (*bi-, mono-, semi*) və s.);

6) çevirmə qabiliyyətinə görə. Bu keyfiyyətinə görə affikslər iki yerə bölünür: bir qisim affikslər başqa nitq hissələrinin formalaşmasına imkan verir, digər qisim affikslər isə kökün leksik mənasını dəyişir, lakin başqa nitq hissəsi yaratmırlar.

Bir qayda olaraq, prefikslər sözün qrammatik mənasını dəyişmədiyindən daşıyıcı xarakter daşımır. Bununla belə, birdəfəlik çevrilmə prosesinin təsiri ilə digər nitq hissələrinin formalaşması halları qeydə alınıb. Belə ki, *underwater* (sualtı) sözü *under-* prefiksi və çevrilmə zamanı substantivləşmiş sifətə çevrilən kök *water* (su) ilə əmələ gəlir. Beləliklə, prefiksləri onlara xas olan mənaya görə qruplara bölmək daha düzgündür.

Şəkilçilərin əsas hissəsi yeni nitq hissəsinin formalaşmasına xidmət edərək köçürmə xarakter daşıyır.

Beləliklə, affiksiyanın ümumi sözyaradıcı modeli "əsas + affiks"/ "affiks + əsas" düsturu ilə ifadə oluna bilər və xətti modellərə aiddir. Affiksasiya zamanı söz yaradıcılığı prosesinin nəticəsi düzəltmə sözdür [1, s.247].

Son bir neçə onillikdə affiks düzəltmə modeli bir çox yeni düzəltmə sözlərin yaranmasına səbəb olmuşdur. Belə genişmiqyaslı və fəal prosesin səbəblərindən biri də affikslərin sayca çox olmasıdır. Ötən əsrin ortalarından indiyədək ingilis dilində yeni leksik vahidlərin əmələ gəlməsində 115 şəkilçi və yarımşəkilçidən, 127 prefiks və yarımprefiksdən istifadə edilmişdir.

Ən məhsuldar prefikslərə və yarımprefikslərə aşağıdakılar daxildir:

● *Anti* – əksmənalı sözlərin əmələ gəlməsində iştirak edir:

● *Anticrastination* – vacib işləri əvvəlcədən yaxşı yerinə yetirmək;

● *Anti-hype* – məşhur şeylərə münasibətdə emosional olaraq sakit olmağa üstünlük verən bir insan;

● *Kiber* – informasiya texnologiyaları sahəsində sözlərin formalaşmasında iştirak edir: *cyberaddiction* – internetdən asılılıq; *cybercafe* – internet kafe; *cybernaut* – kiber fanat; *cybercrime* –internetdə törədilən cinayətdir.

● De – "təxirə salmaq" mənasında işlənir: *tode-conflict* – münaqişəni həll etmək; *tode-risk* – riski azaltmaq;

*Degifting* – çətin maliyyə vəziyyəti səbəbindən hədiyyə vermək ənənəsini müəyyən müddətə dayandırmaq üçün ailə və ya dostlar dairəsi daxilində qarşılıqlı razılaşmadır.

● Eco – "ekoloji, təbii" mənalı sözlərin əmələ gəlməsində iştirak edir:

*eco-friendly* – ekoloji cəhətdən təmiz, ətraf mühit üçün təhlükəsiz; *econeer* – ekoloji sistemi dəstəkləyən mühəndisdir.

● Mis – "yanlış, səhv" mənasını alır: *Mistext* – mesajın təsadüfən nəzərdə tutulmadığı bir şəxsə göndərildiyi bir vəziyyətdir;

*Mistweet* – Twitter-də hər kəsin oxuması üçün müəyyən bir şəxs üçün nəzərdə tutulmuş mesajın göndərildiyi bir vəziyyət;

*Mis-wave*, arxanızda dayanan şəxslə salamlaşarkən bir insanla salamlaşdığınız zaman yöndəmsiz bir vəziyyətdir.

● Re- "nəyisə yenidən etmək" mənasında istifadə olunur: *reskilling* – yenidən hazırlıq; *repost* – səhifənizdə başqa istifadəçi və ya icmadan bir yazı yerləşdirmək.

Aşağıdakı şəkilçilər və yarımşəkilçilər bu yaxınlarda ən böyük məhsuldarlığı nümayiş etdirdi:

● -able, "nəyəsə uyğun" mənasında sözlərin əmələ gəlməsində iştirak edir:

*drinkable* - içməli; *readable* - oxumaq üçün uyğun.

● -aholic, bir şeyə aludə olan adamı təsvir etmək üçün istifadə olunur:

*bookaholic* - kitabsevər; *sigaretholic* - çox siqaret çəkən; *chocaholic* - şokolad həvəskarı.

● *-free,* isimlə birləşərək, arzuolunmaz hadisələri təsvir edir və neytrallaşdırır, yaxud nədənsə imtinanı bildirir:

*Child-free* – nəslini davam etdirməyi planlaşdırmayan şəxsin mövqeyi;

*GMO-free-* geni dəyişdirilməyən məhsullar.

● *-conscious*, isimlərlə birləşərək, həyatın hansısa aspektinə daha çox vaxt ayıran insanları təsvir etmək üçün istifadə olunur.

*Health-conscious* – sağlamlığına diqqətlə nəzarət edən şəxs;

*Fashion-conscious* – dəblə bağlı insan.

● *-minded*, həm sifət, həm də isimlə birləşərək, müxtəlif xüsusiyyətlərə malik insanları təsvir etmək üçün istifadə olunur:

*double-minded* – qərarsız; *money-minded* – pulunun qayğısına qalmaq.

● *-speak*, müəyyən dairələrdə istifadə olunan lüğəti bildirir:

*childspeak* – uşaqlara xas olan nitq; *streetspeak* – küçə jarqon; *sciencespeak* – elm adamlarının leksikonu.

Hazırda söz və ifadələrin qısaldılması üçün geniş çeşidli modellər mövcuddur ki, bu da fenomenin özünün çoxyönlü olduğunu göstərir. Bu sözyaratma modeli dilin rasionallaşdırılması və linqvistik səylərə qənaət edilməsi meylini əks etdirir. İxtisarın qısaltma, birləşmə və abreviatura kimi növlərini nəzərdən keçirək [5, s.176].

## Nəticə / *Conclusion*

Beləliklə, müasir ingilis dilindəki sözyaratma üsulları çox olsa da, onlar arasında affikslər vasitəsilə yeni sözlərin yaradılması halına daha çox rast gəlinir. Baxmayaraq ki, ingilis dili flektiv dildir və flektiv dillərə kökdən dəyişmə halları daha xasdır.

**Ədəbiyyat / *References***

1. Bauer, L. English Word Formation. Cambridge: CUP, 1983. – 311 p.
2. Məmmədova, S. İngilis və Azərbaycan dillərində söz yaradıcılığı prosesinin nəzəri məsələləri Filologiya məsələləri, № 6, 2019.
3. Nuri Ələviyyə. İngilis dilində suffikslərin təhlili, "Qədim diyar" Beynəlxalq onlayn elmi jurnal. 2023 / Cild: 5 Sayı: 11 / 31-37.
4. Елисеева, В.В. Лексикология английского языка [Текст]: учебное пособие. СПб., 2003. – 44 с.
5. Мешков, О.Д. Словообразование современного английского языка. – М., 1976. – 245 с.
6. Перева, А.В. Система суффиксации в современном английском языке: Дис.... канд. филол. наук. – М., 1976. – 296 с.
7. Харитончик, З.А. Лексикология английского языка: учебное пособие. Мн.: Высшая школа, 1992. – 229 с.
8. Царев, П.В. Продуктивное именное словообразование в современном английском языке. – М.: Изд-во МГУ, 1984. – 225 с.

## Обзор основных способов словообразования в современном английском языке

**Фируза Каримова**
Доктор философии по филологии
Академия Государственного Таможенного Комитета
E-mail: k.firuza@mail.ru

**Резюме.** Словотворчество является разделом лингвистики и служит для создания новых слов в языке. Словотворчество обогащает словарный запас языка. В современном английском языке существует много разных способов создания нового слова. Эти методы в основном реализуются путем добавления к словам аффиксов, создания новых слов, объединения двух и более слов или перемещения слова из одной части речи в другую. Таким образом, как правило, подобные изменения предполагают создание новых слов в языке и существование особых закономерностей словообразования.
Хотя английский язык является флективным языком, суффиксальные морфемы играют важную роль в образовании английского слова. Аффиксация – один из наиболее продуктивных способов словообразования в современном английском языке. Аффиксация – это добавление приставок и суффиксов к корню или основе слова. Создание новых лексических единиц происходит, когда слова претерпевают определенные смысловые изменения.
**Ключевые слова:** английский язык, словотворчество, современный, метод, аффикс